# YAP Xəzər rayon təşkilatında partiyanın yaranmasının 23-cü ildönümü təntənəli şəkildə qeyd olunub



**Ötən həftənin şənbə günü Yeni Azərbaycan Partiyasının (YAP) Xəzər rayon təşkilatında partiyanın yaranmasının 23-cü ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə YAP icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov, YAP icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatı Rauf Əliyev, YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, təşkilat fəalları, gənclər və ictimaiyyətin digər nümayəndələri iştirak ediblər.**









Tədbirin rəsmi hissəsindən əvvəl qonaqlar Azərbaycan xalqının ümummilli lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin rayon təşkilatının inzibati binasında yerləşən büstü önünə gül dəstləri qoyaraq əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov partiyanın Azərbaycanın müasir tarixində əhəmiyyətli rolundan, dahi lider Heydər Əliyevin misilsiz xidmətlərindən geniş söhbət açdı: "Ulu öndər Heydər Əliyev ölkəmizi, xalqımızı düşdüyü çətin böhrandan çıxarmaq üçün Yeni Azərbaycan Partiyasını yaratmağa nail oldu. Ölkədə çoxpartiyalılıq sisteminə yeniliklər gətirən YAP qısa müddət ərzində xalqın böyük rəğbətini qazandı. Əbəs yerə deyil ki, təsis edildiyi vaxt müxalifət partiyası olmasına baxmayaraq, qısa zaman kəsimində iqtidara gələn partiya xalq tərəfindən çox böyük dəstək qazandı. Bu gün Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyev ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi kursu uğurla davam etdirərək, yeni-yeni nailiyyətlərə, uğurlara imza atmaqla, Azərbaycanı beynəlxalq aləmdə lider dövlətlər sırasına çıxarıb. Xalqımız bu uğurları görür və partiyamızın, cənab Prezident İlham Əliyevin ətrafında mütəşəkkilliklə birləşir".

Sonra çıxış edən Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov YAP-ın yaranma tarixindən söhbət açıb: "Tarixi zərurətdən yaranan YAP yarandığı vaxt bir çox təqiblərə, təzyiqlərə məruz qalırdı. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan xalqının iradəsindən güc alan ulu öndər Heydər Əliyev qətiyyəti, midrikliyi və uzaqgörənliyi ilə partiyanın yaranmasına nail oldu. 1992-ci il oktyabrın 24-də ulu öndər Heydər Əliyev Azərbaycanın 91 ziyalısının müraciətinə cavab verərək YAP-ın yaranmasına və ona rəhbərlik etməyə razılığını bildirdi. Bununla da Azərbaycan xalqının taleyində tarixi dönüş nöqtəsi yarandı. Bu hadisə ölkədə yeni ictimai-siyasi situasiyanın yaranmasının, dövlətçiliyimizin xilasının başlanğıcı oldu. YAP yarandığı gündən çox qısa müddət sonra Azərbaycanda iqtidar partiyasına çevrildi və o zamandan da məhz Azərbaycan xalqının rifahı, dövlətimizin inkişafı naminə çox geniş fəaliyyəti ilə cəmiyyətin hər bir təbəqəsinin möhkəm və sarsılmaz dəstəyini qazandı. Bu gün YAP Azərbaycanın ən güclü siyasi təşkilatı olmaqla, ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayır. Partiyamız ötən 23 ildə çətin və şərəfli yol keçib. Hər bir cəmiyyətin, dövlətin, eləcə də siyasi partiyanın gələcəyinin möhkəm təməllər üzərində qurulması çox vacib məsələdir. Təbii ki, Yeni Azərbaycan Partiyasının təməli möhkəm və əzəmətlidir".



Tədbirdə YAP icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək bildirdi ki, Yeni Azərbaycan Partiyası artıq öz fəaliyyəti ilə nəinki dünənin və bü günün, eləcə də gələcəyin nəhəng siyasi təşkilatı olduğunu sübut edib. Belə ki, partiyanın hazırda həyata keçirdiyi çoxsaylı layihələr, ölkənin avanqard siyasi qüvvəsi kimi ictimai-siyasi proseslərdə oynadığı rol, ölkəmizin inkişafına verdiyi mühüm töhfələr də məhz bu cür qənaətə gəlməyə kifayət qədər zəmin yaradır: "1992-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması dövlətimizin tarixində mühüm əhəmiyyət kəsb edən hadisələrdən biri olub. Bu partiya sağlam düşüncəli, sağlam fikirli insanları öz ətrafında birləşdirmək və ölkənin problemlərinin həllində iştirak etmək, öz xidmətlərini göstərmək məqsədilə yarandı. Azərbaycan bu gün partiyamızın Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir. Yeni Azərbaycan Partiyası isə bu inkişafın önündə gedərək xalqa sədaqətlə xidmət edir".

Fəal YAP-cılar Sərxan Rəfixanov və Vüsalə Əlizadə tədbirdə çıxış edərək, partiyanın yürütdüyü uğurlu gənclər siyasətindən söz açıblar. Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclərin müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak etdiklərini bildirən çıxışçılar fikirlərini bu sözlərlə tamamlayıblar: "Yeni dövrdə dövlətimizin qarşısında duran çətinlikləri həll edə bilmək üçün gənclərin yenidən təşkilatlanması, azad, demokratik düşüncənin formalaşması ümummilli lider Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində mümkün olub. Bu gün böyük inam hissi ilə qeyd edirik ki, ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti hazırda Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilir. Məhz bunun sayəsində Azərbaycan gəncliyi cəmiyyətin bütün sferalarında fəallığı ilə seçilir və dövlətə, dövlətçiliyə sadiqdik nümayiş etdirir".

Çıxışlardan sonra tədbirin yekunu olaraq təşkilatın ictimai-siyasi həyatında aktiv iştirakçılarına görə partiya fəallarına və gənclərə fəxri diplomlar təqdim olunub.

**Taleh Bağırov,**
***"İki sahil"***